**UOT 39; 572.9**

# YAZIÇI-DEKABRİST A.A.BESTUJEV-MARLİNSKİNİN ƏSƏRLƏRİNDƏ ETNOQRAFİK GÖRÜŞLƏR

**R.M.İBRAHİMOVA**
***Bakı Dövlət Universiteti***
***renaibrahimova@yahoo.com***

*Məqalə dekabrist-yazıçı A.A.Bestujev-Marlinskinin bədii irsindəki etnoqrafik görüşlərinin təhlilinə həsr olunmuşdur. Burada Qafqaz xalqları, o cümlədən azərbaycanlıların maddi mədəniyyəti, yaşayış məskənləri, evlər, milli geyimlər, yeməklər, nəqliyyat vasitələrinə dair etnoqrafik məlumatlar araşdırılmışdır. Əhalinin təsərrüfat fəaliyyəti, ailə məişəti, dini görüşləri, xalq bayramları haqqındakı qeydlər etnoqrafik təhlilini tapmışdır. İslamın mütərəqqi ənənələri və onların əhalinin həyatında rolu, A.Bestujev-Marlinskinin etnoqrafiya sahəsindəki qabaqcıl fikirləri vurğulanmışdır.*

**Açar sözlər:** etnoqrafiya, azərbaycanlılar, təsərrüfat, ailə məişəti, maddi və mənəvi mədəniyyət

Dekabrist – yazıçı A.A.Bestujev-Marlinski Qafqazı öz bədii yaradıcılığında tərənnüm etmiş rus ədiblərindən biridir. O, təkcə şəxsi müşahidələri ilə kifayətlənməyib, xüsusi etnoqrafik ədəbiyyatdan istifadə etmişdir. Azərbaycan dilinə yaxşı bələd olduğundan yazılarında külli miqdarda bu dildəki etnoqrafik məhfumlara rast gəlinir. Ədib bu məfhumların mətndə təhlilini, onların rus dilində tərcüməsini vermiş və bu, onun əsərlərinin etnoqrafik dəyərini qat-qat artırır.

Yazıçı dəfələrlə əsərlərində Azərbaycan xalqının mədəniyyətinə xas olan məfhumlardan bədii təsvirlərdə istifadə etmişdir. Xüsusilə, ədibin "Molla-Nur" hekayəsi etnoqrafik məlumatlarla zəngindir. Müəllif 1836-cı ildə yazdığı bu hekayəni tarixən azərbaycanlıların məskəni olmuş Dərbənd şəhərinin təsvirindən başlayır: evlərin XIX əsrdə Qafqazda əsas inşaat materialı sayılan çiy kərpicdən tikildiyini yazır. Evlərin yastı damına qır salınmış, otaqların döşəməsi palazlar, yaxud həsirlərlə örtülmüşdür. Orta və varlı təbəqənin evlərin: otağın bir küncündə qurulmuş buxara vasitəsi ilə qızdırırdılar, sərt soyuqlarla isə mis manqalda kömür yandırılırdı. Otağın divarları boyunca insan boyu hündürlüyündə qurulmuş ləmlərə qablar yığılırdı (2, 79). Ədib hekayədə "hörgülü" evdən yazır. Etnoqrafik ədəbiyyatda göstərilir ki, "hörgülü" yaxud "çovustan" tipli evlər qamış və çubuq hörgülü olaraq "qom ev", "qarğı ev",

"qamış ev" adlanır (7, 127). Yerli camaatın evləri adətən ikimərtəbəli və çox səliqəli olurdu, birmərtəbəli olan hörgülü evlər isə çöldən və daxildən əhəngələnirdi. A.Bestujev "Qafqaz oçerkləri"ndə yazır ki, bəy evi rəiyyət evindən ancaq genişliyi və daş hasarı ilə seçilirdi. Sonra əhalinin təsərrüfat məşğuliyyətindən asılı olaraq yaşayış məskəni tipinin formalaşması qeyd olunur. Belə ki, Qutqaşen mahalında ipəkçiliyin yayılması səbəbindən geniş tut bağları ilə əhatə olunmuş evlər nizamsız və pərakəndə inşa olunmuşdu. "Molla-Nur" hekayəsində müxtəlif növ ev əşyalarının adları çəkilir: içməli su saxlamaq üçün misdən bardaq (2, 36), qazan, manqal, sandıq, billur qəlyan və güldan, ayna, və aftafa-ləyən, tük balınc, ipək yorğan (2, 45, 55).

Ədib Dərbənddəki tikililərdən söhbət açaraq şiələrə məxsus olan məscidlərin minarəsiz inşa olunduğunu, günbəzinin başına ulduz yaxud ələm sancıldığını yazır. Sünni – müsəlmanları məscidlərinin damını ay-para bəzəyirdi. Yazıçı məscidləri ibadət ocağından başqa, dindarların vaxtaşırı toplaşıb yeni xəbərləri müzakirə etdikləri ictimai yer, uşaqların mollanın rəhbərliyi altında Qurani-Kərimi öyrəndikləri təhsil ocağı kimi təsvir etmişdir (2, 140).

Dərbənd məscidinin dəhlizini güzgülər, güləbatın naxışlı pərdələr, üzərində Qurandan misralar yazılmış bayraqlar bəzəmişdi. Ədib "Molla-Nur" əsərində dəfələrlə su təchizatından yazıb, böyük minnətdarlıqla yol kənarında fəvvarələr tikənləri yad edir və qeyd edir ki, xeyirxah şəxslər tərəfindən, böyük vəsaitə quraqlıq yerlərdə inşa edilmiş bu içməli su mənbələri kiminsə etdiyi əhdinə görə, yaxud mərhumun ruhuna ehsan olaraq tikilirdi. Fəvvarənin ətrafında dindarlar etdikləri günahlardan qurtulmaq, yaxud müjdələrinə yetmək məqsədilə ağaclar əkirdilər. A.Marlinski bu adətləri müsəlman dünyasının ən insanpərvər, gözəl ənənəsi adlandırır (2, 42). Fəvvarələrə su tunc borularla axırdı. "Qafqaz oçerkləri" yazısında Qutqaşenə içməli suyun ağac borularla çatdırılması məlum olur. Əkin sahələrinin suvarılmasının xüsusi qaydaları var idi. Paylanan suyun miqdarı əkin sahəsinin ölçülərindən asılı olurdu (2, 144).

Maddi mədəniyyət nümunələri haqda A.Bestujev-Marlinskinin yaradıcılığında kifayət qədər məlumatlar vardır. Kişi geyim dəstindən "Molla – Nur" hekayəsində papaq, bəz köynək, atmaqol, ətəkləri baftalı çuxa, atlas arxalıq, çərkəz yapıncısı, qurşaq, samur kürk, çalma, uzunboğaz hündürdabanlı çəkmə, zirehli köynək, "Qafqaz oçerkləri"ndə Dağıstanda istehsal olunmuş sarı rəngli uzunboğaz çəkmə, uzunburun çarıq, badışın adları çəkilir. Baş geyimlərindən ağamirlərin – şiə seyidlərin yaşıl rəngli çalma, Həc ziyarətində olmuş hacılar papağın üstündən ağ çalma bağlayırdılar. Sünni-müsəlmanların baş geyimlərində isə bu adətə riayət etmək mütləq idi (2, 26). Geyim dəstini soyuq və odlu silahlar tamamlayırdı. Bunlardan xəncər, tüfəng, bıçaq, qılınc adına "Molla – Nur" hekayəsində rast gəlinir.

Qadın geyimləri daha rəngarəng və çeşidli idi. A.Bestujev "Molla – Nur" əsərinin qəhrəmanı Kiçiknənə adlı qızın əynində yaxasına qızıl pullar və kəsmələr bənd edilmiş çəhrayı rəngli, geniş qolları qızıl düymələri tafta köynəyin, üstündən gövdəsini kip tutmuş zərxara arxalığın, başında zərif ağ

rəngli örtüyün olduğunu yazır (2, 43). Bundan başqa ədib Dərbənd qadınlarının geyim dəstinə ətəyi baftalı şalvar-çaxçurun, başmaq, yun corablar, çalma, atlas don-arxalıq, haşiyəli çadranın daxil olduğunu qeyd edir. Ənənəvi qadın geyimlərinə zinət əşyaları xüsusi rövnəqlik verirdi. Hekayədə bəzəklərdən “qızıl ğul” formalı qızıl sancaq, üzük, minalı sırğa, zəncirə bənd edilmiş qızıl sikkələr və ulduz kəsmələrdən ibarət olan boyunbağı, baş bəzəyi – “baqı”nın adları çəkilir (2, 123). Azərbaycan qadınları ənənəvi olaraq kosmetik vasitələrdən istifadə etmişlər. Bunlardan ənlik, kirşan, sürmə, gülyanaq, xınanın adlarına “Molla – Nur” hekayəsində rast gəlinir. Xına yaşlı kişilərin saqqallarına, qadınların və kiçik uşaqların saçlarına qoyulurdu (2, 54).

Azərbaycan mətbəxi bütün Qafqazda zənginliyi və ləzizliyi ilə seçilir. A.Bestujev “Molla – Nur” əsərində yazır ki, axşam düşəndə Dərbənd sakinləri evlərinə, ocaq başına yığışanda ətrafı ətirli ədviyyatlı plovun qoxusu bürüyürdü. Başqa bir parçada plovu kişmiş, zəfəran və kərə yağı ilə hazırlanması yazılır. Hekayədə xəmir xörəklərindən “qaşıq” (sulu xəngəl) xəngəlin adı çəkilir və qeyd olunur ki, bu yemək süfrəyə sarımsaqla verilməlidir. Hazırlanma qaydasına görə ən sadə, lakin çox ləziz təam olan – kababı A.Bestujev hekayədə “şişlik” adlandırır. Ət yeməklərindən dolmanın həm toy və həm yas mərasimində süfrəyə qoyulduğu yazılır. Bu gün nadir hallarda hazırlanan alma dolması haqda məlumat verilir. Heyvan şəriət qaydaları ilə kəsilməli idi, ancaq belə olduqda ət halal sayılırdı. Müəllif çörəkbişirmə qaydasından söz açaraq çörəyin gildən qurulmuş çırpı ilə yandırılan yerüstü təndirlərdə bişirildiyini yazır. Əsərdə lavaş, buğda və darı çörəyi növləri qeyd olunur. Lavaş sarımsaqlı ayranla da yeyilərdi. Balıq növlərindən əsasən çay sularından tutulan şamayı balığın adı çəkilir. Haqlı olaraq A.Bestujev müsəlmanlara pulcuqsuz balıq yeməyi qadağan olduğunu qeyd edir (2, 73).

Şirniyyatlardan Şərqdə geniş yayılmış noğul şirniyyatına A.Bestijevin yazdığına görə qoz da əlavə olunur. Hekayədə dəfələrlə adı çəkilən qızıl gül suyu – gülab gündəlik məişətin və dini mərasimlərin vacib atributu olmuşdur. Ən geniş yayılmış içki növü – şərbət olmuşdur.

Ədib azərbaycanlıların süfrə mədəniyyətinə böyük diqqət yetirmişdir. O yazır ki, plovu qaşıqla yemək, stul üstündə oturmaq allaha xoş gəlməyən adətdir. Qonaqlara ilk növbədə təndir çörəyi, qoyun pendiri və ayran təklif olunduğu “Molla – Nur” hekayəsində göstərilir. Məlumdur ki, ağartı məhsulları həzmə müsbət təsir göstərən ərzaqdır.

A.Bestujev bir neçə nəqliyyat vasitələrindən söhbət açır. Atlar əsasən minik üçün istifadə olunurdu. “Qafqaz oçerkləri”ndə yük daşıyan iri, lakin yüngül təkərli Bakı arabaları, ağır, ləng hərəkət edən gürcü arabaları, çay sularından keçmək üçün bərədən yazılıb.

A.Bestujev-Marlinskinin yaradıcılığını təhlil edərkən təsərrüfat həyatı haqda məlumatlar əldə etmək mümkündür. “Molla – Nur” hekayəsində Dərbənd sakinlərinin geniş buğda və marena əkin sahələrinin olduğu yazılır. Toxuculuqda al-qırmızı rəng kimi istifadə olunan marena təbii boyaq kökünü

qızıl boya adlandırırlar. Eramızdan çox əvvəl becərilən bu texniki bitkinin XIX əsrin əvvəllərində əsas məskənlərindən biri Dərbənd şəhərinin ətraf ərazisi idi (1, 186, 187). A.Bestujev-Marlinski şəhər sakinlərinin əsasən əkinçilik və ticarətlə dolandıqlarını yazır. Ən böyük gəliri isə boyaq kökünün satışından əldə olunurdu. “Molla – Nur” hekayəsində Dərbənd ətrafında geniş badam, nar, şaftalı bağlarının olduğu yazılıb. “Qafqaz oçerkləri”ndə ədib Qubada üzümlüklərin yaxşı məhsul vermədiyindən şərabçılıq sahəsinin keyfiyyətli inkişaf etmədiyini qeyd edir.

A.Bestujev Qafqazda olduğu dövrdə Dərbənd əhalisinin xeyli hissəsi sənətkarlıqla məşğul olurdu. Şəhərdə ipək və pambıq parçalar, mis qablar, dəmir əşyalar və s. istehsal olunurdu (6, 267). “Molla – Nur” hekayəsində deyilir ki, Dərbəndin bazarlarındakı ticarət köşkləri eyni zaman sənətkarların emalatxanası idi. Burada yunu pardaqlayan, toxucu, silahsaz, çəkməçi, zərgərlər çalışırdı. Xüsusilə də, əsərdə Qara-Qaytaqda Qubaçı kəndinin silahsazları və zərgərlərinin yüksək ustalıqları ilə Qafqazda şöhrət qazandıqları vurğulanır (2, 48-49). Bu ustalar istehsal etdikləri tüfəngləri qızıl və gümüş oymalarla, minalı naxışlarla bəzəyirdilər. Belə bir qiymətli silah A.Bestujev-Marlinskinin özünə də məxsus idi. “Molla – Nur” əsərində İskəndər bəyin çadralıq dama-dama naxışlı darayı parça bəxşiş aldığı deyilir. Ədib Quba haqqında “Qafqaz oçerkləri”ndə deyilir ki, burada gözəl, çox keyfiyyətli xalçalar toxunur. Müəllif yazır ki, general Yermolov yerli sənətkarlar üçün Avropada istehsal olunan xalçaların naxışlarının şəkillərini gətirmişdir ki, buradakı rus hərbiçiləri və məmurları istədikləri xalçaları sifariş edə bilsinlər. Keçmişdə tikmə sənəti qadınlar arasında geniş yayılmış məşğuliyyət olmuşdu. Kiçiknənə də gələcək nişanlısı üçün çaxmaq daşı kisəsi və ovçu əlcəyinin üzərinə güləbatın naxışları salır (2, 181).

XIX əsrin I yarısında ovçuluq yardımçı təsərrüfat məşğuliyyəti kimi mövcud olmuşdu. “Molla – Nur” əsərində İskəndər bəyin baharda tərlan quşu ilə bildirçin ovuna çıxdığı deyilir (2, 41). Etnoqraf V.Əhmədova tərlanla ov növünü çox maraqlı idman və əyləncə kimi səciyyələndirir (3, 43).

A.Bestujevin “Molla – Nur” və “Qafqaz oçerkləri” yazılarında inək, öküz, camış, dəvə, at, qoyun bəslənilməsi söylənilir. Əsas nəqliyyat vasitəsi olan at cinslərindən Qarabağ atının adı çəkilir (2, 38). Rahat yorğusu, surəti, gözəl görünüşünə görə yüksək qiymətləndirilən Qarabağ atları bütün Qafqaz bölgələri, Rusiyada böyük şöhrət qazanmışdı. Qafqaz xalqlarında ata xüsusi münasibət yaranmışdı. At hər bir kişinin namus-qeyrətinin təcəssümü sayılırdı. Məhz buna görə də “Molla – Nur” əsərində Səfər-Qulu adlı bir şəxsin düşmənləri atının quyruğunu kəsməklə sahibinin ləyaqətini ləkələyirlər.

“Qafqaz oçerkləri” bütövlükdə A.Bestujevin yol təəssüratlarından xəbər verir. O, Quba, Qonaqkənd, Şirvan, Şamaxı, Şəki, Qutqaşenə etdiyi səfərini məskənlərin təsvirinə, əhalinin məşğuliyyətinə həsr etmişdi. O, Şirvanı günəşli, Qafqazda ən bol buğda yetişən diyar, Şamaxını isə ipək məmləkəti adlandırır. Qutqaşen haqqında yazır ki, hündür, damına küləş salınmış evlər geniş

meyvə və tut bağları ilə əhatə olunmuşdu. Quba haqqında yazır ki, bu məskənin beş minə qədər sakini var, qızmar yayda ətraf meşələr buraya sərinlik gətirir. A.Bestujevin təsvir etdiyi Dərbənd şəhərinin əhalisinin əksəriyyətinin müsəlman olduğunu yazır.

Şəriət qanunları ailə-nigah münasibətlərinə dərindən sirayət edərək bir sıra adətlərin yaranmasının səbəbi olmuşdur. yazıçı diqqətlə əhalinin ailə məişətini müşahidə edib və bu haqda dəyərli fikirlər söyləmişdir. Haqlı olaraq o yazır ki, Qafqazda olmuş bir çox müəlliflərin müsəlmanlar arasında poliqamiyanın geniş yayılması haqda qeydləri yanlışdır: bu nigahlar əsasən varlı və kübar ailələrdə bağlanır, çünki gəlin üçün böyük miqdarda başlıq tələb olunurdu. “Qafqaz oçerkləri” yazısında varlı, yaşlı kişinin iki cavan arvadı olması, yaxud “Molla – Nur” əsərində Dərbəndin qala-bəyinin (polislərin başçısı) qoca olmağına baxmayaraq dörd arvadı və üç kənizi olduğu deyilir (2, 144). Orta təbəqə və yoxsul ailələrdə monoqamiya hökm sürürdü. Lakin çox vaxt yoxsul ailədə evlənmək müşkül məsələyə çevrilə bilərdi. “Molla – Nur”da qadın başlıq ödəmək üçün pulu olmadığı səbəbdən oğlunun təkidlərinə baxmayaraq onu evləndirə bilmir.

Yazıçının başqa qeydlərinə görə Şərq ölkələrində olmuş səyyahlar müsəlman aləmində cavan qız və oğlanların bir-birlərinin üzünü görməmiş nigah bağladıqlarını yazsalar da, bu qaydanı ancaq varlı və zadəganlar mühititinə aid etmək olar. Sadə insanlar arasındakı yaxın ünsiyyət subay oğlanlara qızları gözaltı etməyə imkan verirdi. Adətən qızlar on bir yaşa qədər üzlərini çadra altında gizlətmirdilər və buna görə də oğlanlar özlərinə gələcək nişanlı görüb-seçə bilirdilər. “Molla – Nur” əsərində İskəndər bəy Kiçiknənəni ilk dəfə təsadüfən fəvvarənn yanında görür və gözaltı onu özünə nişanlı seçir. Həmin hekayədə ədib müsəlman qadınının ailədə vəzifələrini sadalayır: ləziz yeməklər bişirməyi və tikiş işlərini bilməli, ərinin qayğısına qalmalı, onun əmrinə tabe olmalı və s. Ərli qadının yeganə əyləncəsi toy-nişanda, hamamda, məsciddə başqa qadınlarla görüşüb-söhbətləşmək idi (2, 129). “Molla – Nur” əsərində Azərbaycan toy adətləri haqda geniş səpkili etnoqrafik məlumatlar vardır. Qıza elçi düşən adamın cəmiyyətdəki sosial statusu mütləq nəzərə alınırdı. Əksər hallarda oğlan və qız eyni sosial təbəqədən olardılar. Kiçiknənənin əmisi İskəndər bəyin evlənmək və ailə saxlamaq üçün kifayət qədər pulu, adlı-sanlı qohum-əqrəbası olmadığına görə onun elçisinə rədd cavabı verir, çünki özünə varlı, arxalı kürəkən istəyirdi. Tədqiqatçı A.Məmmədov yazır ki, “Azərbaycanda ənənəvi olaraq çoxsaylı və nüfuzlu qohumları olan adamın cəmiyyətdə nüfuzu yüksəlir. Bu amil qohumluq münasibətlərinin xarakterik xüsusiyyətidir” (5, 142). Cəmiyyətdə insanın dini statusuna da əhəmiyyət verirdilər. Kiçiknənənin əmisi Ağamir nəslindən olduğu ilə öyünərək İskəndər bəylə qohum olmağı özünə layiq bilmir. Elçiliyə adətən oğlanın yaxın qadın qohumları gedərdi. İskəndər bəy sevdiyi qızın elçiliyinə xalası Xədicə xanımı göndərir. A.Bestujev yazır ki, elçilik baş tutanda başlığın miqdarı haqda danışıqlara başlayırdılar. Qızın qohumları başlığı böyük miqdarda

almağa çalışırdı. Ümumi razılığa gəldikdən sonra toydan qabaq başlığın bir hissəsi qız evinə cehizin hazırlanması üçün verilirdi. Ədib müsəlman toylarının sadəliyindən söz açaraq, qeyd edir ki, toydan qabaq qızı təntənə ilə hamama aparırlar, sabahı gəlinin cehizləri musiqi sədaları altında bəyin evinə aparılır, axşam düşəndə isə gəlini duvaq altında qohumları və musiqiçilərin müşayəti ilə oğlanın evinə yola salırlar. Toydan qabaq molla cavanların kəbinini kəsir. Ədib İskəndər bəylə Kiçiknənənin toyunun təsvirində maraqlı adətdən xəbər verir. Gəlini ər evinə yola salanda tüfənglərdən göyə atəş açırdılar: Əgər gəlinin davranışında hansısa bir qüsur, nalayiq hərəkət olubsa, onda tüfəngdən gülləni yerə atardılar.

Ədib qadınların cəmiyyətdə vəziyyətindən söz açaraq yazır ki, qadınlar tamamilə valideynləri, qardaşları, əmiləri, dayıları və ərlərinin tabeçiliyindədirlər. Məsələn, Kiçiknənənin nigah məsələsini atasının əvəzi olan əmisi həll edir. Yazıçı qadınların alqı-satqı obyekti olduğunu da söyləyir. Belə ki, "Molla – Nur" əsərində Dərbəndə aclıq üz verdiyi zaman atanın qızını iyirmi manat gümüş pula Məhəmməd-Rəsul adlı bir kişiyə satdığı yazılıb (2, 32). Şiələr arasında bağlanan müvəqqəti nigah – siğə haqqında "Molla – Nur" əsərində məlumat vardır. Hacı-Yusif Bakıya səfər edəndə orada bir qadınla dörd ay müddətinə nigah bağlayır (2, 123).

XX əsrin əvvəllərinə qədər Qafqazda geniş vüsət almış "qan qisası" adəti "Molla – Nur" əsərində öz əksini tapmışdır. Camaat içində təhqir olunmuş Kiçiknənənin əmisi öz şərəfini qorumaq üçün günahkarın qanını tökmək istəyir. Eyni cəza qatili də gözləyirdi.

A.Bestujev-Marlinskinin azərbaycanlıların mənəvi dünyası haqda qeydləri diqqətə layiqdir. Məlumdur ki, insan ibtidai dövrün ilkin mərhələlərində tamamilə təbiətdən asılı vəziyyətdə yaşamışdı. Təbiətin məhsulu sayılan insanda özünün ətraf mühitə, xüsusilə də, dörd ünsürə (su, od, hava, torpaq) təsir göstərmək qabiliyyətinə inam yaranmışdır. "Molla – Nur" əsərində Dərbənd şəhərinə üz vermiş quraqlıq zamanı icra olunan bir neçə ayinin keçirilməsi təfərrüatı ilə təsvir olunur. Yağışın uzun müddət olmaması Dərbənd əhalisinin əsas gəlir mənbəyi olan buğda və marena kökü məhsulunun məhv olması demək idi. Aclıq, səfalət qorxusu bütün şəhəri lərzəyə gətirmişdi. Ədibin qeydincə əvvəl məscidlərə toplaşıb Allahdan yağış diləyir, günahlarının bağışlanmasını istəyir, sonra isə açıq səma altında Allaha dua edirdilər ki, duaları göylərə tez yetişsin. Nəticəsi olmayanda isə "Yağış çağırma" qədim ayini icra etmək üçün cavan oğlanlar, yeniyetmələr yoların kəsişdiyi yerlərdə keçənlərdən şam və gülab pulu toplayırdılar. Oğlan uşaqlarından ən qəşəngini seçib onun paltarını güllər və ipək lentlərlə bəzəyirdilər. Sonra bu izdiham küçələri bir-bir dolaşıb yağış və şeh allahı sayılan "Qodu"nu mahnılarla tərənnüm edirdi. Yazıçı mahnının mətninə əsərdə yer verib:

"Qodu, Qodu, xoş gəldin
Dalınca yağış gəldi.

Gəlin, ayağa dursana
Çömçəni doldursana.”

Mərasim iştirakçıları əl çalıb rəqs edir və ümidlə yağış gözləyirdilər (2, 23). Etnoqrafik ədəbiyyatdan məlum olur ki, yağış uzun müddət kəsməyəndə isə “Günəşçağırma” mərasimi keçirilirdi (4, 127-130). Bu ayin də gözlənilən nəticə vermədikdə başqa bir üsulla yağışı çağırmağa cəhd edirdilər. “Molla – Nur” hekayəsində çox maraqlı bir ayin haqda məlumat vardır. Belə ki, Dərbənd sakinləri yığışıb, məsləhətləşib qərara gəldilər ki, şəhərin ən hörmətli, tərbiyəli əməli-saleh bir cavanı Şahdağın zirvəsindən bir qab qar gətirsin ki, bunu Xəzərin sularına qatsınlar. İnanca görə bu ayinin sonunda mütləq yağış yaymağa başlayırdı (1, 29). Hekayədə İskəndər bəy bu təhlükəli səfərdən Şahdağın qarını gətirir və böyük insan izdihamı təntənə ilə dualar oxuya-oxuya Xəzərin sularına qatır. Bundan sonra tezliklə Dərbəndə bolluca yağış yağır (2, 113). “Qafqaz oçerkləri”ndə amnistik təsəvvürlərlə bağlı bir adətin təsviri verilir. A.Marlinski Şamaxıya gedən yolun kənarındakı sərdabənin ətrafında yerə basdırılan ağac budaqlarına düyünlənmiş parça tikələrini görür. Ədib izah edir ki, belə sərdabələr şeyx yaxud pir, yəni allahın itaətində duran, əməli-saleh adamların qəbirləri üzərində tikilirdi. Çox vaxt Məkkədə vəfat etmiş zəvvarlar ya yad torpaqda qan tökmüş döyüşçüləri üçün də sərdabələr ucaldılırdı. Yoldan keçən ölənin ruhuna dualar oxuyur, sonra əynindəki paltarından bir kiçik parça qopardıb ağacın budağına bağlamalı və Allahdan uğurlu yol diləməliydi (2, 203). Bu yazı parçasında “ölülərin ruhuna sitayiş” və “fetişizm”in əksi nəzərə çarpır. A.Bestujev islamın mahiyyəti, onun insanların həyatında oynadığı rolunu ətrafl təhlil edir. Belə ki, o, “Molla – Nur” hekayəsində yazır ki, müsəlmanlar islam dininin naminə canlarından da keçər və ölüm ayağında varidatının, adətən bir hissəsini yoxsullara yaxud mədrəsənin xəzinəsinə, su kəmərinin, ya da ki, su mənbəyinin (kəhriz, ovdan) inşasına sərf olunmasını vəsiyyət edərdilər (2, 42), çünki bu xeyirxah işlərdən hamı faydalana bilir (8, 31): əsərin başqa parçasında müsəlmanların öz vəsaitlərinə məscid inşa etdirməsindən, Kərbəlaya gedən zəvvarlar karvanına maddi yardım göstərmək kimi işlərindən söhbət açılır. A.Bestujev müsəlmanların “Aşura” qətl mərasimi haqda məlumat verir. O, imam Hüseynin Yezid tərəfindən Kərbəla yaxınlığında hicri təqviminin 61-ci ilinin məhərrəm ayının 10-da qətlə yetirilməsi münasibətilə “qətl” mərasiminin hər il qeyd olunmasını yazır. Onun təsvirinə görə, Dərbənd şəhərində yaşayan şiələr şər qarışanda çıraqlarla işıqladırılmış meydana toplaşırlar. İmam Hüseynin qətli səhnələri şəhər sakinlərinin ifasında canlandırılır. Mərasim iştirakçıları isə vaxtaşırı “Şah Hüseyn, vay Hüseyn” qışqıraraq ağlaşırdılar (2, 132). Bu əsərdə “Orucluq” bayramı haqqında da məlumat vardır. Orucluqda səhər tezdən axşam düşənə qədər hətta tənbəkinin tüstüsünü də qoxumaq günah sayılırdı (2, 27). Ədib bu əsərdə qurban bayramından da söhbət açır (2, 151).

A.Bestujevin yaradıcılığında xalq musiqi alətləri haqqındakı qeydlər ədibin bu sahədə məlumatlı olduğunu bildirir. O, qopuz, balaban, zurna, qaval alətlərinin müşayəti ilə toy mərasimi, xalq şənliklərinin keçirilməsini yazır.

### ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası, I c., Bakı: Elm, 1988, 451 s.
2. Бестужев-Марлинский А.А. Избран. произведения. Баку: Азернешр, 1990, с. 227.
3. Əhmədova V.Ə. XIX – XX əsrin əvvəllərində Azərbaycanda ovçuluq və balıqçılıq. Bakı: Elm, 2010, 158 s.
4. Иоакимов А. Из этнографического дневника. СМОМПК, Тифлис, вып. IX, 1890, с. 210.
5. Мамедли А.Э. Современные этнокультурные процессы в Азербайджане: основные тенденции и перспективы. Баку: Университет Хазар, 2008, с. 245.
6. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı: Viktori nəşriyyatı 2011, s. 391.
7. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, s. 252.
8. Rəcəbli Q.Ə. Azərbaycanda su mənbələri və sudan istifadənin xalq üsulları. Bakı: Bakı Slavyan Universiteti, 2007, s.51.


## ЭТНОГРАФИЧЕСКИЕ МОТИВЫ В ТВОРЧЕСТВЕ ПИСАТЕЛЯ-ДЕКАБРИСТА А.А.БЕСТУЖЕВА-МАРЛИНСКОГО


**Р.М.ИБРАГИМОВА**


### РЕЗЮМЕ


В статье исследованы этнографические представления в литературном творчестве декабриста-писателя А.А.Бестужева-Марлинского, отражающие сведения об элементах материальной культуры народов Кавказа, в том числе азербайджанцев, а именно: поселениях, жилищах, одежде, пище, транспорте. Анализированы сведения о хозяйственной деятельности, семейном быте, религиозных представлениях, народных праздниках. Отмечены прогрессивные традиции ислама и его значение в жизни населения, а также передовые идеи А.Бестужева-Марлинского в области этнографии.



**Ключевые слова**: этнография, азербайджанцы, хозяйство, семейный быт, материальная и духовная культура


## ETHNOGRAPHIC VIEWS OF LITERARY ACTIVITY OF THE WRITER-DECEMBRIST A.A.BESTUJEV-MARLINSKIY


**R.M.IBRAHIMOVA**


### SUMMARY


The article studies the literary activity of the writer-decembrist Bestujev-Marlinskiy who provides a vivid picture of elements of material culture of the Caucasian people, including the Azerbaijanis, notably, their settlements, national clothes, food, transport. The author provides an ethnographic analysis of the data about agricultural activity, family relations, beliefs, national holidays. Progressive traditions of Islam and its place in the lives of the population and paramount ideas of Bestujev-Marlinskiy regarding ethnography are also elucidated in the article.



**Key words**: ethnography, Azerbaijani people, agriculture, family relations, material and spiritual cultures